**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# LƏNKƏRAN TƏBİİ VİLAYƏTİNDƏ DEMOQRAFİK İNKİŞAFIN TƏNZİMLƏNMƏSİNİN İQTİSADİ-COĞRAFİ ASPEKTLƏRİ

İxtisas: 5403.01 – İnsan coğrafiyası

Elm sahəsi: Coğrafiya

İddiaçı: **Mina İsa qızı Bağırova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2025**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akad. H.Əliyev adına Coğrafiya İnstitutunun Demoqrafiya və əhali coğrafiyası şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: coğrafiya elmlər doktoru, professor
**Zakir Namin oğlu Eminov**

Rəsmi opponentlər: coğrafiya elmlər doktoru, professor
**Tapdıq Güləhməd oğlu Həsənov**

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Saleh Qasım oğlu Nağıyev**

coğrafiya üzrə fəlsəfə doktoru
**Kərəm Bayram oğlu Bayramov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası ETN akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən BFD3.14 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: coğrafiya elmlər doktoru, dosent
**Məlikməmməd Xanoğlan oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Ziyafət Bilal oğlu Ağayev**

Elmi seminarın sədri: coğrafiya elmlər doktoru, dosent
**Nəriman Əziz oğlu Paşayev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Azərbaycanın regionlarında təsərrüfatın və əhalinin səmərəli ərazi təşkili, əhalinin sosial-mədəni ehtiyaclarının müasir tələblər səviyyəsində ödənilməsi, yerli təbii şərait və təbii ehtiyatlardan istifadə edilməsi davamlı inkişafa keçid üçün mühüm əhəmiyyət kəsb edir. Bu vəzifənin həyata keçirilməsi üçün müstəqillik illərində genişmiqyaslı tədbirlər görülmüş, regionların inkişafı üzrə bir neçə Dövlət Proqramı qəbul edilmişdir. Onlardan dördünün yerinə yetirilməsi müddəti başa çatmışdır. Bu dövrdə nəqliyyat-kommunikasiya şəbəkəsi yenidən qurulmuş, çoxsaylı yeni sosial-mədəni obyektlər tikilmiş, mövcud istehsal və xidmət müəssisələrinin əksəriyyətinin fəaliyyəti bərpa edilmişdir.

Kənd təsərrüfatında aparılan aqrar islahatlar əkin sahələrinin genişlənməsinə, bir çox sahələrdə məhsul istehsalının artırılmasına, məhsuldarlığın yüksəldilməsinə imkan vermişdir. Onlardan istifadə edilməsi əsasında yüngül və yeyinti sənayesi sahələrinə aid emal müəssisələri fəaliyyət göstərir.

Lakin hələlik ölkənin regionları arasında əhali qeyri-bərabər paylanır və burada uyğunsuzluq getdikcə artır. Əhalinin Abşeronda toplanması davam edir, bu isə paytaxt ilə yanaşı, digər iqtisadi rayonlarda da ciddi problemlər yaradır. Ölkədə məskunlaşmada olan disproporsiyaların azaldılması üçün regionlarda tədbirlər görülməsi ilə yanaşı, onların elmi-nəzəri əsaslarının da işlənməsi vacibdir. Regionlarda demoqrafik göstəricilərin dinamikasında olan əsas meyillər yaxın gələcəkdə əhalinin sayının artımına, onun cins və yaş tərkibinin optimal səviyyəsinin saxlanmasına mənfi təsir göstərir, əmək ehtiyatlarının iş yerləri ilə təmin edilməsi, məşğulluq strukturunda kadrlardan istifadə edilməsinə əsaslanan sahələrin aşağı göstəriciləri problem olaraq qalır.

Son dövrlərdə doğum və təbii artım göstəriciləri ciddi şəkildə aşağı düşür, miqrasiyalar aşağı səviyyədə olsa da gedir. Əhali arasında ölüm səbəblərinin təhlili göstərir ki, qan dövranı sistemi, yenidən törəmələrin payı getdikcə artır.

Regionlarda iş yerlərinin sayının demoqrafik potensialın tələblərindən geri qalması, sosial-mədəni xidmətlərin aşağı səviyyəsi, mənzil təminatında olan çətinliklər əhalinin yerlərdə saxlanılmasına imkan vermir, eyni zamanda ətraf ərazilərdən əhalinin regional və rayon mərkəzlərinə cəlb edilməsində problemlər yaranır.

Nəticədə regionlarda, o cümlədən Lənkəran-Astara iqtisadi rayonunda yerləşən şəhər və qəsəbələrdə əhalinin sayı zəif templə artır, urbanizasiya səviyyəsi aşağıdır. Göstərilən problemlərin həll edilməsi, ölkənin sosial-iqtisadi inkişafı, demoqrafik potensialın paylanması və səmərəli istifadə edilməsində regionların payının artırılması üçün iqtisadi, mədəni, sosial, demoqrafik sahələrdə islahatlar aparılması ilə yanaşı, onların elmi-nəzəri və metodoloji əsaslarının işlənib hazırlanması, əməli və praktiki əhəmiyyəti olan təkliflər və tövsiyələrin hazırlanması tələb olunur. Bunları nəzərə alaraq əhali və təsərrüfatın qarşılıqlı əlaqədə öyrənilməsi vacib vəzifə kimi qarşıda durur.

Ölkənin cənubunda yerləşən Lənkəran-Astara iqtisadi rayonu təsərrüfatın yerləşməsi və əhalinin məskunlaşmasında xüsusi yer tutur. Uzun illər ərzində yüksək təbii artım getməsi əhalinin sayının artmasına və sıx məskunlaşmasına səbəb olmuşdur. Onun nizamlanması və yaşayış məntəqələrinin ərazisinin genişlənməsində ciddi problemlər vardır, bunun üçün kənd təsərrüfatına yararlı torpaqlardan istifadə edilir, bu ərazilər əkin dövriyyəsindən çıxarılır.

İqtisadi rayonda məskunlaşma areallarından səmərəli istifadə edilməsi, yaşayış məntəqələrinin təsərrüfat strukturunun təkmilləşdirilməsi yollarının müəyyən edilməsi, iş yerləri ilə təminat, sosial-mədəni xidmətlərin səviyyəsinin yüksəldilməsi, demoqrafik inkişafın təmin edilməsində onların rolunun artırılması yollarının tədqiqi vacib vəzifədir, onların həll edilməsi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda regionların sosial-iqtisadi və demoqrafik inkişafı istiqamətində tədqiqatlar XX əsrin 60-cı illərindən başlanmışdır, ayrı-ayrı regionların öyrənilməsi 70-80-ci illərdə genişlənmişdir. Bu tədqiqatlarda regionların təbii-coğrafi şəraiti və təbii ehtiyatları, onların təsərrüfat əhəmiyyəti, istifadə edilməsi imkanları, yaşayış məntəqələrinin sosial-iqtisadi bazası, onun formalaşmasını müəyyən

edən amillər, demoqrafik inkişaf meyilləri, yenidən qurulması istiqamətləri öyrənilmişdir. İndiyə qədər tədqiqat obyekti üzrə də bir neçə dissertasiya yerinə yetirilmişdir.

Lakin müasir dövrdə regionların demoqrafik inkişafında çətinliklər qalır. Urbanizasiya səviyyəsinin aşağı olması və zəif templə artması, şəhərlər və qəsəbələrin zəif sosial-iqtisadi bazası, pullu və sosial-mədəni, məişət xidmətlərinin mövcud tələbatdan geri qalması davamlı inkişafa mane olur. Problemin həll edilməsi üçün elmi-tədqiqat işlərinin aparılması, əməli və praktiki əhəmiyyəti olan təkliflər və tövsiyələrin hazırlanması mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyekti Lənkəran-Astara iqtisadi rayonunda demoqrafik inkişaf, burada yerləşən şəhər və kənd yaşayış məntəqələrinin əhalisidir. İqtisadi rayonda demoqrafik inkişafın nizamlanması, əmək ehtiyatlarından səmərəli istifadə, məşğulluq probleminin həlli, məskunlaşmanın tənzimlənməsi, bu prosesdə təsərrüfatın sahə və ərazi strukturunun səmərəli təşkilinin rolu tədqiqat işinin predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın yerinə yetirilməsində məqsəd Lənkəran-Astara iqtisadi rayonunda demoqrafik inkişafın təmin edilməsi üçün həyata keçirilməsi zəruri olan iqtisadi, sosial-mədəni tədbirlərin işlənib hazırlanması, regionun davamlı iqtisadi və sosial-demoqrafik inkişaf yollarının öyrənilməsidir.

Bu məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Təbii şəraitin, regionun ərazi potensialının demoqrafik inkişaf baxımından qiymətləndirilməsi.
- Müstəqillik illərində sənaye, kənd təsərrüfatı və sosial xidmət sahələrində aparılan islahatların məskunlaşmada rolunun müəyyən edilməsi.
- Yaşayış məntəqələrində təsərrüfat sahələrinin inkişafı, kənd təsərrüfatının inkişafında təbii şəraitin imkanları və təbii ehtiyatlardan istifadə edilməsi yollarının öyrənilməsi, yeni məskunlaşma areallarının mənimsənilməsi istiqamətlərinin tədqiqi.

- Son dövrlərdə demoqrafik vəziyyətdə baş verən dəyişikliklərin müəyyən edilməsi, onların əhalinin sayına, cins-yaş tərkibinə təsirinin öyrənilməsi.

- Demoqrafik inkişafa ciddi şəkildə təsir göstərən yaşayış məntəqələrinin sosial-iqtisadi bazasının yenidən qurulması və möhkəmləndirilməsi istiqamətində həyata keçirilməsi zəruri olan tədbirlərin müəyyən edilməsi və iqtisadi-coğrafi cəhətdən əsaslandırılması.

- İqtisadi rayonda demoqrafik inkişafın təkmilləşdirilməsi yolları haqqında təkliflər hazırlanması və onun nizamlanmasında qanunvericilik bazasının rolunun öyrənilməsi.

- Məskunlaşmanın nizamlanması, perspektiv inkişaf yollarının, davamlı demoqrafik inkişafın təmin edilməsi istiqamətlərinin müəyyən olunması.

**Tədqiqat metodları**. Dissertasiya işinin yerinə yetirilməsi prosesində iqtisadi coğrafiyanın müxtəlif tədqiqat metodlarından istifadə edilmişdir. Onlara statistik təhlil, kameral təhlil, riyazi modelləşdirmə, tarixi, kartoqrafik, çöl-tədqiqatları və s. üsullar aiddir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- Müstəqillik illərində iqtisadi rayonda məskunlaşmanın idarə edilməsi, demoqrafik inkişaf sahəsində olan dəyişikliklərin öyrənilməsi, onların nəticələrinin müəyyən edilməsi;

- Məskunlaşmanın sosial-iqtisadi bazasının möhkəmləndirilməsi üçün həyata keçirilən tədbirlərin əhəmiyyəti, əhalinin iş yerləri ilə təminatı, sosial-mədəni xidmətlərin yüksəldilməsi istiqamətləri;

- Əhalinin yüksək sıxlığa malik olduğu, torpaq ehtiyatlarının məhdud olduğu şəraitdə məskunlaşmanın nizamlanmasında olan problemlərin aradan qaldırılması üçün həyata keçirilən tədbirlər, bu sahədə Dövlət Proqramlarının rolu;

- Yaşayış məntəqələrinin demoqrafik potensialının yerlərdə saxlanılması üçün həyata keçirilməsi zəruri olan tədbirlər, yaşayış məntəqələrinin davamlı inkişafının təmin edilməsi istiqamətləri.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyada aparılan tədqiqatların elmi yeniliklərinə aşağıdakılar aiddir:

- Müstəqillik illərində regionun demoqrafik inkişafı proseslərində baş verən meyillər müəyyən edilmiş, onların əhalinin sayı, artım sürəti, cins-yaş tərkibinə təsiri istiqamətləri tədqiq edilmişdir;

- Məskunlaşmanın sosial-iqtisadi bazasının yenidən qurulması və onun davamlı inkişafının təmin edilməsi üçün mövcud təbii-iqtisadi potensialından səmərəli istifadə edilməsi yolları müəyyən edilmişdir;

- Demoqrafik inkişafın inzibati rayonlar üzrə olan daxili fərqləri öyrənilmiş, onların yerli xüsusiyyətlərindən asılı olaraq dəyişməsi səbəbləri müəyyən edilmişdir;

- Əhalinin məskunlaşmasının prioritet istiqamətlərinin müəyyən edilməsində yerli təbii-iqtisadi potensialdan istifadə edilməsi yolları tədqiq edilmişdir. Bu zaman regionun demoqrafik inkişaf xüsusiyyətləri əsas kimi qəbul edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın yerinə yetirilməsi zamanı aparılan təhlillər və əldə edilən nəticələr regionun sosial-iqtisadi və demoqrafik inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün mühüm mənbə rolunu oynayır. Onlar digər iqtisadi rayonlarda demoqrafik inkişaf yollarının müəyyən edilməsi üçün baza kimi istifadə edilə bilər.

Dissertasiyada aparılan təhlillər və məlumatlar orta və ali təhsil müəssisələrində tədris prosesində mənbə kimi istifadə edilə bilər. Regionların sosial-iqtisadi və demoqrafik inkişafı üzrə Dövlət Proqramlarının hazırlanmasında dissertasiyanın əhəmiyyəti çoxdur.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin hazırlanması zamanı aparılan tədqiqatın əsas müddəaları aşağıdakı konfranslarda və seminarlarda müzakirə edilmişdir: “Azərbaycan regionlarının coğrafi problemləri” mövzusunda respublika elmi-praktiki konfransı (Bakı, 2016), “Müasir dövrdə effektiv idarəetmənin problemləri” mövzunda respublika konfransı (Bakı, 2016), “Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhalinin məskunlaşmasının perspektivləri və regional problemləri” mövzusunda elmi konfrans (Bakı, 2016), “Turizm və rekreasiya XXI əsrdə: Problemlər və perspektivlər” mövzusunda III Beynəlxalq elmi-praktiki konfrans (Bakı, 2017), “Тенденции и перспективы

развития туризма в Казахстане и Центральной Азии" mövzusunda I Beynəlxalq elmi-praktiki konfrans (Qazaxıstan, Almatı, 2019), "Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün və sabah" beynəlxalq elmi-praktik konfrans (Bakı, 2019), "Davamlı inkişafın təmin olunmasında turizmin rolu" mövzusunda konfrans (Bakı, 2019), "Безопасность человека и устойчивое развитие общества перед вызовами Глобальных трансформаций" mövzusunda "XXIV Вавиловских чтений" adlı daimi Beynəlxalq konfrans (RF, Yoşkar-Ola, 2021)

Tədqiqat işinin mövzusuna dair 18 elmi məqalə çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Respublikası ETN akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun Demoqrafiya və əhali coğrafiyası şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, 4 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin həcmi 174 səhifədir. İş 50 cədvəl, 5 xəritə, 6 şəkil, 194 adda ədəbiyyat siyahısından ibarətdir. Giriş – 6 səhifə, I fəsil – 22 səhifə, II fəsil – 38 səhifə, III fəsil – 53 səhifə, IV fəsil – 27 səhifə, nəticə – 3 səhifə, ədəbiyyat siyahısı – 16 səhifədir. Cədvəlsiz, qrafiksiz, şəkilsiz və ədəbiyyat siyahısız 224160 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Girişində** mövzunun aktuallığı, məqsəd və vəzifələri, obyekti və predmeti, istifadə olunmuş tədqiqat metodları, tədqiqatın informasiya bazası və məlumat mənbələri müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, elmi-praktik əhəmiyyəti göstərilmiş, dissertasiya işinin aprobasiyası haqqında məlumat verilmişdir.

Dissertasiyanın **"Əhalinin öyrənilməsinin əhəmiyyəti və demoqrafik inkişafin müasir meyilləri"** adlı birinci fəslində demoqrafik göstəricilərin dinamikası araşdırılmış, müasir və klassik

dövr alimlərinin fikirləri təhlil olunmuş, demoqrafik inkişafın öyrənilməsinin əhəmiyyəti və iqtisadi-coğrafi əsasları araşdırılmışdır.

Demoqrafik göstəricilər qısa vaxt ərzində baş verən ictimai-siyasi, iqtisadi, sosial-mədəni proseslər nəticəsində dəyişikliyə məruz qalır. Onlar bir çox hallarda uzun dövrlər ərzində dəyişir. Ona görə baş verən mənfi proseslərin vaxtaşırı olaraq nizamlanması tələb olunur. Bunun üçün ölkədə gedən demoqrafik proseslərin hər bir tərəfinin mövcud vəziyyəti davamlı olaraq qiymətləndirilməli, onun hansı nəticələrə gətirəcəyi müəyyən edilməlidir. Məsələn, doğulan uşaqların sayının azalması nəticəsində əhalinin də sayı zəif templə artır, uşaqların əhali arasında payı tədricən aşağı düşür. Baş verən proseslər yaxın onilliklərdə əmək qabiliyyətli yaşa daxil olanların sayının azalmasına gətirib çıxarır, kadrların hazırlanması və onların zəruri olan sayda təminatı çətinləşir. Ona görə ölkədə təbii artımın əhalinin sayının çoxalmasını təmin edən səviyyədə saxlanılması vacib vəzifə kimi həll edilməlidir.

Bunun üçün fəal demoqrafik siyasət aparılması, doğulan ikinci və üçüncü uşaqlara görə xüsusi müavinətlərin verilməsi zəruridir. Eyni zamanda mənzillərlə təminatın həll edilməsi, dövlət vəsaitləri hesabına tikilən mənzillərin sahəsinin genişləndirilməsi, əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin təşkili ölkədə təbii artımın yüksəldilməsinə yönəldilən tədbirlərə aiddir.

1995-2016-cı illərdə ölkədə hər 1000 nəfərə görə doğum əmsalı 16-18, təbii artım əmsalı 10-12 arasında dəyişmişdir. Son illərdə bu göstəricilər azalmaqda davam edir və artım yaxın 20-25 ildə əhalinin sayının artımını təmin edəcək kəmiyyətdən xeyli aşağı enmiş, 2023-cü ildə təbii artım əmsalı 5,2 səviyyəsində olmuşdur[1]. Əhalinin sayının təbii artım hesabına çoxalmasını təmin edən nəsilvermə (fertillik) əmsalının minimal həddi 2,15 olduğu halda, hazırda ölkədə 1,6-ya, o cümlədən kənd əhalisi arasında 1,8-ə enmişdir. Bu isə onu göstərir ki, ölkədə orta hesabla ailələrdə uşaqların sayı 2-dən azdır.

---

[1] Azərbaycanın əhalisi - 2023. Bakı: Dövlət Statistika Komitəsi, - 2024. - 140 s.

Təbii artım prosesində iştirak edən qadınların sayı da sürətlə aşağı düşür[2].

Baş verən demoqrafik proseslərdən biri kimi əhalinin cins tərkibinin pozulmasına təsir göstərən meyillər böyük narahatlıq doğurur. Əhalinin cins tərkibinin pozulmasına təbii artımın cins tərkibinin dəyişməsi, miqrasiyalarda kişilər və ya qadınların fəal iştirak etməsi, ölümün cins tərkibinin dəyişməsi təsir göstərir.

Son vaxtlarda Azərbaycanda doğulan uşaqlar arasında oğlanların sayının artması müşahidə edilir. Az vaxt ərzində əhali arasında qadınlar və kişilərin say nisbəti ciddi şəkildə dəyişir. Ona görə baş verən proseslərin qarşısının alınması vacibdir. Bunun üçün ilk növbədə qadınların hamiləliyi dövründə olan tibbi müayinələrə nəzarəti gücləndirmək lazımdır. 2009-cu ildə respublikada qadınların say üstünlüyü 93,6 min nəfər, 2019-cu ildə 54,4 min nəfər təşkil etmişdir. Bu isə onu göstərir ki, yaxın bir-iki ildə ölkədə qadınlar və kişilərin sayında olan fərqlər aradan qalxacaqdır, hətta kişilərin sayı artacaqdır[3].

Bu gün Azərbaycanın demoqrafik inkişafına ciddi şəkildə mənfi təsir göstərən proseslər sırasına boşanmaların artmasını da aid etmək olar. Bu prosesə təsir edən bir neçə amili göstərmək olar. İlk növbədə erkən yaşda nikahların artması, mənzillərlə təminatın çətinliyi, birgə yaşayan ailələrin sayının artması, əhalinin maddi gəlirlərinin aşağı səviyyəsi boşanmaların artmasına gətirib çıxarır.

Boşanmaların artması doğulan uşaqların sayına ciddi şəkildə təsir göstərir və onun azalmasına gətirib çıxarır. 1985-ci ildə Azərbaycanda 7879 boşanma qeydə alınmış, onun 90%-i (7088) şəhər əhalisinin payına düşmüşdür. 1989-1991-ci illərdə milli

---

[2] Борисов, В.А. Демография / В.А.Борисов. - Москва: НОТА ВЕНЕ, - 2001. - 272 с., Бутов, В.И. Демография / В.И.Бутов. - Москва: МарТ, - 2003. - 592 с., Валентей, Д.И., Кваша, А.Я. Основы демографии. / Д.И.Валентей, А.Я.Кваша, - Москва: Мысль, - 1989. - 286 с.

[3] Azərbaycan Respublikası əhalisinin 2009-cu il siyahıyaalmasının yekunları: [22 cilddə]. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. - Bakı: Dövlət Statistika Komitəsi, - c.1. - 2010. - 629 s., Azərbaycan Respublikasında əhalinin siyahıyaalması. 2019-cu il: [30 cilddə]. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. - Bakı: Dövlət Statistika Komitəsi. Narıncı nəşriyyat evi MMC, - c.1. - 2022. - 682 s.

münaqişələrin baş verməsi, qarışıq nikahların pozulması prosesində boşanmalar kəskin şəkildə artmışdır, onun hər 1000 nəfərə görə əmsalı 1990-cı ilə qədər 2,0 dəfə yüksəlmişdir.

XX əsrin 90-cı illəri və XXI əsrin ilk onilliyində boşanmalar aşağı səviyyədə olsa da, 2010-cu ildən başlayaraq şəhər və kənd əhalisi arasında eyni vaxtda boşanmalar kəskin şəkildə yüksəlmişdir. 2023-cü ildə ölkədə 54,2 min nikah qeydə alınsa da, boşanmalar 21,7 mindən çox olmuşdur. Onun 14,8 mini (68,4%) şəhər əhalisinin payına düşür. 2015-cu ildən sonra şəhərlərdə boşanmalar 1,7 dəfə, kəndlərdə 1,8 dəfə çoxalmışdır[4].

Azərbaycanda demoqrafik inkişaf ilə yanaşı, məskunlaşma sahəsində də xeyli problemlər mövcuddur, onların həll edilməsi istiqamətində əsaslı təsirə malik addımların atılması tələb olunur. Ən mühüm məsələ əhalinin, o cümlədən şəhər əhalisinin regionlar üzrə qeyri-bərabər paylanmasıdır. Hazırda ölkənin ümumi əhalisinin 30%-ə qədəri, o cümlədən şəhər əhalisinin yarısından çoxu Abşeronda cəmlənir. Bunun əsas səbəbləri sırasına məskunlaşmanın iqtisadi və sosial-mədəni bazasının regionlarda kifayət qədər zəif olması, əhalinin yerlərdə iş yerləri ilə təminatında problemlərin olması, göstərilən sosial-mədəni xidmətlərin aşağı səviyyəsi və s.-dir[5].

Ölkənin sənaye-istehsal fondlarının 80-90%-ə qədəri, bu sahədə məhsul istehsalının böyük əksəriyyəti Abşeronun payına düşür. Ona görə ölkənin demoqrafik potensialı da artıq uzun illərdir ki, burada toplanmaqda davam edir.

Belə vəziyyətlə əlaqəli olan digər həlli vacib məskunlaşma problemi regionlarda urbanizasiya səviyyəsinin aşağı olması, şəhərlərin zəif inkişafı, uzun illər ərzində demoqrafik inkişafın zəif templə getməsidir. Əksər iqtisadi rayonlarda, o cümlədən Dağlıq Şirvan, Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatalada bu göstərici 30%-ə qədərdir. İnzibati rayon mərkəzi olan şəhərlər sosial-iqtisadi və demoqrafik inkişaf mərkəzi rolunu yerinə yetirə bilmir.

Göstərilən demoqrafik və məskunlaşma problemlərinin həll edilməsi üçün yerlərdə əsas məskunlaşma mərkəzləri olan şəhərlər,

---

[4] Azərbaycanın əhalisi - 2023. Bakı: Dövlət Statistika Komitəsi, - 2024. - 140 s.
[5] Müstəqillik yollarında 25. Azərbaycan MEA. Bakı: Şərq-Qərb, - 2016. - 628 s.

qəsəbələr və iri kənd yaşayış məntəqələrinin inkişafına şərait yaratmaq, regionlarda iqtisadi inkişafın əsası olan kənd təsərrüfatının inkişafını təmin etmək, bu sahənin əhalinin gəlirlərinin formalaşmasında payının artırılması zəruridir.

Tədqiqat işinin ikinci fəsli **"Məskunlaşmanın müasir vəziyyəti və inkişaf problemləri"**nə həsr edilmişdir.

Lənkəran-Astara iqtisadi rayonunda şəhər məntəqələri məskunlaşmada mühüm rola malikdir. 2024-cü ilin əvvəlində iqtisadi rayonda 246,8 min nəfər şəhər əhalisi olmuşdur[6]. Onlar iqtisadi rayonun ümumi əhalisinin 26,3%-ni, ölkənin şəhər əhalisinin 4,5%-ni təşkil etmişdir (Cədvəl 1). Şəhər məntəqələrinin iqtisadi bazasının zəif olması, göstərilən sosial-mədəni xidmətlərin aşağı səviyyəsi demoqrafik inkişafı təmin etmir. Ona görə regionda şəhər əhalisinin sayı zəif templə artır və urbanizasiya səviyyəsi uzun illərdir ki, aşağı olaraq qalır.

Lənkəran-Astara iqtisadi rayonunda şəhər məskunlaşması çox böyük inkişaf potensialına malikdir. Regionda şəhərlərin inkişafı iki əsas istiqamətdə aparıla bilər. Onlardan biri rayon mərkəzləri ilə yanaşı, mövcud olan ikinci şəhər məntəqələrinin də inkişaf etdirilməsidir. Regionda bu qrupa Cəlilabad rayonunda yerləşən Göytəpə şəhəri, Lənkəran rayonunda olan Liman şəhəri daxildir. Hər iki şəhərdə əhalinin sayı 10,0 min nəfərdən yuxarıdır. Onlar çox əlverişli İCM-də yerləşir. Bu məntəqələrdə sosial-iqtisadi və mədəni baza yaratmaqla demoqrafik inkişafın davamlı xarakter almasını təmin etmək olar[7].

İkinci istiqamət əhalisinin sayı çox olan qəsəbələrin inkişafına üstünlük verilməsi, onlara şəhər statusu verilməsi, yüngül və yeyinti sənayesi, xidmət sahələri üzrə müəssisələr şəbəkəsi yaradılması vacibdir. Regionda Ərkivan qəsəbəsi 17,8 min nəfər əhaliyə malikdir və şəhərlər sırasına daxil edilə bilər[8].

---

[6] Azərbaycanın demoqrafik göstəriciləri 2023. Bakı: Dövlət Statistika Komitəsi, 2024. - 617 s.

[7] Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda demoqrafik inkişaf problemləri və əhali məskunlaşması / R.M.Məmmədovun redaktəsi ilə. - Bakı: Avropa nəşriyyatı, - 2019. - 216 s.

[8] Azərbaycanın demoqrafik göstəriciləri 2023. Bakı: Dövlət Statistika Komitəsi, 2024. - 617 s.

Cədvəl 1.

İqtisadi rayonda şəhər əhalisinin sayının dəyişməsi və artımı

| İnzibati rayonlar | Əhalinin sayı, min nəfər | | | | | Əhali artımı, faiz | | | 1989-2019-cu illərdə artım | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1989 | 1999 | 2009 | 2019 | 2024 1 yanvar | 1989-99 | 1999-09 | 2009-19 | min nəfər | faiz |
| Astara | 16,1 | 18,5 | 22,1 | 32,9 | 33,6 | 114,9 | 119,5 | 148,9 | 16,8 | 2,0 d. |
| Cəlilabad | 35,8 | 47,3 | 55,9 | 56,3 | 58,1 | 132,1 | 118,8 | 100,7 | 20,5 | 157,3 |
| Lerik | 5,8 | 6,6 | 7,3 | 8,3 | 8,7 | 113,8 | 110,6 | 113,7 | 2,5 | 143,1 |
| Lənkəran | 72,7 | 77,1 | 82,8 | 86,7 | 87,5 | 106,1 | 107,4 | 104,7 | 14,0 | 119,3 |
| Masallı | 21,4 | 14,4 | 31,0 | 50,1 | 51,6 | 67,3 | 215,3 | 161,6 | 28,7 | 2,3 d. |
| Yardımlı | 3,4 | 3,6 | 6,6 | 6,9 | 7,3 | 105,9 | 183,3 | 104,6 | 3,5 | 2,0 d. |
| Iqtisadi r-n | 155,2 | 167,5 | 205,7 | 241,2 | 246,8 | 107,9 | 122,8 | 117,3 | 86,0 | 155,4 |
| Azər. Res. | 3805,9 | 4064,3 | 4739,1 | 5440,3 | 5547,8 | 106,8 | 116,6 | 114,8 | 1634,4 | 142,9 |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri - 2018. Bakı: Dövlət Statistika Komitəsi, - 2019. - 560 s., s. 72, Azərbaycanın demoqrafik göstəriciləri 2023. Bakı: Dövlət Statistika Komitəsi, 2024. - 617 s., s. 79, Azərbaycan Respublikası əhalisinin 2009-cu il siyahıyaalmasının yekunları: [22 cilddə]. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. - Bakı: Dövlət Statistika Komitəsi, - c.1. - 2010. - 629 s., Azərbaycan Respublikasında əhalinin siyahıyaalması. 2019-cu il: [30 cilddə]. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. - Bakı: Dövlət Statistika Komitəsi. Narıncı nəşriyyat evi MMC, - c.1. - 2022. - 682 s.

Beləliklə, şəhərlərin qruplaşmasının təhlili göstərir ki, əlverişli İCM-də yerləşən, iqtisadi və sosial-mədəni potensiala malik olan məntəqələr davamlı olaraq inkişaf edir. Regionda şəhər yaşayış məntəqələrinin və şəhər əhalisinin sayına görə Lənkəran rayonu irəlidə durur. Düzən relyef, əlverişli təbii-coğrafi şərait, yüksək təbii artım, əməktutumlu kənd təsərrüfatı sahələrinin fəaliyyəti məskunlaşmanın da inkişafına şərait yaratmışdır (Şəkil 1).




Şəkil 1. İqtisadi rayonun şəhər məskunlaşması xəritə-sxemi

**Mənbə:** Azərbaycanın demoqrafik göstəriciləri-2023. Bakı: Dövlət Statistika Komitəsi, - 2024, - 618 s.

Dissertasiyada rayon mərkəzi olan şəhərlər, həmçinin rayon tabeli şəhərlərin müasir sosial-demoqrafik inkişaf problemləri,

onların əsas inkişaf mərhələləri təhlil edilir. Burada şəhər məskunlaşmasının inkişafında qəsəbələr də əhəmiyyətli yer tutur. Onların inkişafının tənzimlənməsi demoqrafik vəziyyət üçün vacibdir. Təhlillərdə region şəhərlərinin təsnifatı verilir.

Kənd məskunlaşması iqtisadi rayonda əhəmiyyətli yer tutur. Kənd əhalisi uzun illər ərzində əhalinin sayının əsas artım mənbəyi olmuşdur. Onlar şəhərlərdə də əhalinin sayının artımına müsbət təsir göstərmişdir. Müstəqillik illərində yaranan iqtisadi çətinliklər təbii artımın xeyli azalmasına gətirib çıxarmışdır. Ona görə kəndlərdə və şəhərlərdə əhalinin sayının artım tempi azalmağa doğru getmişdir.

Kənd məntəqələri əhalisinin sayına, təsərrüfat strukturuna, bu sahələrin məntəqələrin inkişafında roluna, inkişaf perspektivlərinə, yerləşdiyi ərazinin təbii-coğrafi şəraitinə görə bir-birindən fərqlənir. Əksər hallarda kəndlər əhalisinin sayına görə qruplara bölünür.

Belə qruplaşma kəndlərin inkişaf perspektivlərini müəyyən etməyə, ərazi cəhətdən paylanmasını öyrənməyə, onların funksional təsnifatını aparmağa və sosial-mədəni obyektlər şəbəkəsinin tikilməsi hallarını müəyyən etməyə imkan verir[9].

Lənkəran-Astara iqtisadi rayonunda kənd məntəqələri və kənd əhalisinin qruplaşmasının təhlili göstərir ki, orta və yüksək dağlıq ərazilərdə yerləşən Lerik və Yardımlı rayonlarında kəndlərin əksəriyyətində əhalinin sayı 500 nəfərə qədərdir. Bu qrup kəndlərdə infrastruktur şəbəkəsi yaradılmasında çətinliklər vardır. Ərazisi Lənkəran ovalığında, dağətəyi və alçaq dağlıq zonalarda yerləşən digər rayonlarda kiçik kəndlər azdır. Bu rayonlarda əhalisi 1000 nəfərdən çox olan kənd məntəqələri çoxdur. İqtisadi rayonda əhalisi 2000 nəfərdən çox olan 12 kənd məntəqəsi mövcuddur. Onlar kənd məskunlaşmasında aparıcı mövqeyə malikdir və onun nizamlanmasında mühüm əhəmiyyət kəsb edir (Cədvəl 2).

---

[9] Гекчайли, Ш.Ю. Сельское расселение и его преобразование / Ш.Ю.Гекчайли. - Баку: Азербайджанское Государственное Издательство, - 1987. - 143 с., Мамедов, К.В. Демографическое развитие в Азербайджанской ССР / К.В.Мамедов. - Баку: - 1980. - 243 с., Мехралиев, Э.К. Географические проблемы формирования и размещения населения в Азербайджанской ССР / Э.К.Мехралиев. - Баку: Элм, - 1984. - 196 с.

Cədvəl 2

İqtisadi rayonda kəndlər və kənd əhalisinin qruplaşması

| Qruplar, nəfər | 1999 | | | | 2009 | | | | 2019 | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kəndlər | | Kənd əhalisi | | Kəndlər | | Kənd əhalisi | | Kəndlər | | Kənd əhalisi | |
| | sayı | faiz | sayı, nəfər | Faiz | Sayı | faiz | sayı, nəfər | faiz | Sayı | faiz | sayı, nəfər | faiz |
| 0-50 | 22 | 3,5 | 729 | 0,1 | 22 | 3,4 | 758 | 0,1 | 17 | 2,7 | 536 | 0,1 |
| 50-100 | 38 | 6,0 | 297 | 0,5 | 32 | 5,0 | 2600 | 0,5 | 28 | 4,4 | 2120 | 0,3 |
| 100-200 | 75 | 11,8 | 11592 | 2,1 | 64 | 10,0 | 9728 | 1,6 | 56 | 8,8 | 8320 | 1,2 |
| 200-500 | 178 | 27,9 | 58534 | 10,4 | 175 | 27,2 | 58277 | 9,4 | 173 | 27,1 | 57549 | 8,6 |
| 500-1000 | 157 | 24,6 | 113822 | 20,2 | 151 | 23,5 | 109535 | 17,7 | 147 | 23,0 | 107331 | 16,1 |
| 1000-2000 | 100 | 15,7 | 141401 | 25,1 | 125 | 19,4 | 175113 | 28,2 | 127 | 19,9 | 174355 | 26,2 |
| 2000-3000 | 34 | 5,3 | 81093 | 14,4 | 36 | 5,6 | 89028 | 14,4 | 47 | 7,3 | 113741 | 17,1 |
| 3000-5000 | 24 | 3,8 | 89781 | 16,0 | 26 | 4,0 | 99300 | 16,0 | 28 | 4,4 | 105556 | 15,8 |
| 5000< | 9 | 1,4 | 63047 | 11,2 | 12 | 1,9 | 75588 | 12,1 | 15 | 2,4 | 96847 | 14,6 |
| Cəmi | 638 | 100,0 | 562970 | 100,0 | 643 | 100,0 | 619927 | 100,0 | 638 | 100,0 | 666355 | 100,0 |

**Mənbə**: AR əhalisinin 1999-cu il siyahıyaalmasının yekunları: [9 cilddə]. Əhalinin sayı, cins-yaş tərkibi. - Bakı: Dövlət Statistika Komitəsi, - c.1. - 2000. - 565 s., Eminov, Z.N. Azərbaycanın əhalisi / Z.N.Eminov. - Bakı: Çıraq, - 2005. - 560 s., s. 435. AR əhalisinin 2009-cu il siyahıyaalmasının yekunları: [22 cilddə]. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. - Bakı: Dövlət Statistika Komitəsi, - c.1. - 2010. - 629 s., AR-da əhalinin siyahıyaalması. 2019-cu il: [30 cilddə]. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. - Bakı: Dövlət Statistika Komitəsi. Narıncı nəşriyyat evi MMC, - c.1. - 2022. - 682 s., s. 165-207.

Aparılan təhlillər göstərir ki, əhalisinin sayı nisbətən az olan, 500 nəfərə qədər olan kəndlər və onlarda toplanan əhalinin sayı zəif templə artır, yəni bu qrup kəndlər demoqrafik potensialını itirməkdə davam edir. Əhalisi 1000 nəfərdən çox olan kəndlər və onların əhalisi isə artır. Daha yuxarı qruplara aid olan kənd məntəqələrində demoqrafik inkişaf davamlı xarakter daşıyır. Əhalisi 5,0 min nəfərdən çox olan kəndlər və onların əhalisi yüksək sürətlə çoxalır. Onların inkişafı regionun gələcək inkişafı üçün çox əhəmiyyətlidir.

Lənkəran-Astara iqtisadi rayonunda şəhərlər və qəsəbələrin böyük əksəriyyəti Xəzər dənizinin sahilləri boyu yerləşən Lənkəran ovalığında salınmışdır. Ümumilikdə iqtisadi rayonda Xəzər dənizinin səviyyəsindən (-26 m) okean səviyyəsinə qədər olan ərazilərdə 11 şəhər məntəqəsi yerləşir ki, bu məntəqələrdə 101,4 min nəfər əhali yaşayır. Regionun şəhər məntəqələrinin 52,4%-i, şəhər əhalisinin 42,0%-i bu arealın payına düşür[10].

Kənd məntəqələrinin mühüm əhəmiyyət kəsb etdiyi və kənd əhalisinin sayının çox olduğu regionlara Lənkəran-Astara iqtisadi rayonu da daxildir. İqtisadi rayon kənd əhalisinin sayına görə ölkədə birinci yeri tutur. 2019-cu ildə burada yerləşən kəndlərdə 666,3 min nəfər əhali yaşamışdır. Şəhər və kənd əhalisinin yüksəklik qurşaqları üzrə paylanmasını müəyyən etməklə onların ərazi üzrə paylanması xüsusiyyətləri öyrənilir, məskunlaşma üçün əlverişli olan ərazilər müqayisə olunur, onların səmərəli istifadə edilməsi istiqamətləri işlənib hazırlanır.

Lənkəran-Astara iqtisadi rayonunda kənd əhalisinin böyük əksəriyyəti Lənkəran ovalığında cəmlənsə də, alçaq və orta dağlıq zonalarda da məskunlaşma üçün əlverişli yerlər kifayət qədərdir. Yardımlı və Lerik rayonları bütövlükdə Talış dağlarının orta və yüksək sahələrində yerləşir. Dağlıq ərazilərdə kənd əhalisi əsasən dağlararası çökəkliklərdə, çayların vadilərində, alçaq ərazilərdə yerləşir. Əhalinin sayının artması ilə əlaqədar kəndlərin bəziləri genişlənir. Lakin əksər hallarda dağlıq ərazilərdə kəndlərin ərazi cəhətdən genişlənməsində problemlər yaranır.

---

[10] Azərbaycan Respublikası əhalinin siyahıyaalınması. 2019-cu il. Statistik məcmuə. - Bakı: - c.A. - 2022. - 465 s.

İqtisadi rayonda kəndlər və onlarda kənd əhalisinin məskunlaşması 1999, 2009 və 2019-cu illərin siyahıyaalma materialları əsasında təhlil olunur. 2019-cu ildə iqtisadi rayona daxil olan 638 kənd məntəqəsində 666,4 min nəfərə yaxın əhali yaşamışdır, onlar ümumi əhalinin 73,4%-ni təşkil etmişdir.

Dissertasiyanın üçüncü fəsli **"Demoqrafik inkişafın əsas meyilləri və regional xüsusiyyətləri"**in təhlilinə həsr olunmuşdur. Bu fəsildə tədqiqat rayonunda təbii artımın dinamikası və inkişaf problemləri, bir yaşa qədər uşaq ölümü (körpə ölümü), nikahlar və boşanmalar, əhalinin yaş-cins və milli tərkibi, əhalinin sayının dinamikası, əhalinin məşğulluğu strukturu təhlil olunmuşdur.

İqtisadi rayonda doğum, ölüm və təbii artım göstəricilərinin müstəqillik illərində olan dinamikasının təhlili göstərir ki, XX əsrin 90-cı illərində yaranan iqtisadi çətinliklər onların azalmasına gətirib çıxarmışdır. Azalma prosesləri XXI əsrin ilk illərinə qədər davam etmişdir. Nəticədə əhalinin sayının artım tempi xeyli aşağı enmişdir.

2005-ci ildən sonra iqtisadi rayonda doğum əmsalı hər 1000 nəfərə görə 19-21, təbii artım əmsalı 14-15 arasında dəyişmişdir. 2023-ci ildə onlar doğum üzrə 13,1, təbii artım üzrə 7,6 səviyyəsində olmuşdur. Bu isə onu göstərir ki, regionda təbii artım göstəriciləri son illərdə də azalmaqda davam etmişdir. Astara, Yardımlı, Lerik və Cəlilabad rayonlarında təbii artım əmsalı orta region göstəricisindən yuxarıdır. Lakin Lənkəran və Masallı rayonları təbii artım əmsalının aşağı olması ilə fərqlənir[11].

Son dövrlərdə ölkədə demoqrafik inkişaf sahəsində yaranan problemlər sırasına əhalinin cins tərkibində ciddi dəyişmələrin getdiyini də aid etmək olar. Lənkəran-Astara iqtisadi rayonunda da doğulan uşaqların cins tərkibində, həmçinin kişilər və qadınların ölüm səviyyəsində xeyli fərqlər yaranmışdır. 2008-ci ildə iqtisadi rayonda doğulan oğlanların sayı qızlara nisbətən 1150 nəfər, təbii artım 960 nəfər çox olmuşdur. 2015-ci ildə bu göstəricilər üzrə doğulanlar arasında fərq 1275 nəfər, təbii artım 939 nəfər, 2023-cü ildə müvafiq olaraq 927 nəfər və 422 nəfər olmuşdur.

---

[11] Azərbaycanın demoqrafik göstəriciləri 2023. Bakı: Dövlət Statistika Komitəsi, 2024. - 617 s.

XXI əsrdə ölkədə uşaq ölümünün illik sayının dinamikasında əsaslı şəkildə dəyişiklik az olmuşdur. 2008-ci ildən sonra keçən dövrdə respublikada onun illik sayı 1700-2000 nəfər arasında, hər 1000 nəfər diri doğulan uşağa görə 11-12 nəfər arasında dəyişmişdir. Qərbi Avropa ölkələrində bu göstəricilər 3-4 arasında dəyişir, yəni hələlik ölkədə 3-3,5 dəfə yüksəkdir.

2023-ci ildə ölkədə uşaq ölümünün səviyyəsi xeyli azalsa da, onun hər 1000 diri doğulan uşağa görə əmsalı az dəyişmişdir. İqtisadi rayonda isə bu göstəricilər xeyli artmışdır. Ona görə 2023-cü ildə regionda 259 uşaq ölümü olmuşdur (hər 1000 diri doğulan uşağa 21,2). İnzibati rayonlar arasında onların sayında kəskin fərqlər olmasa da, Masallı, Cəlilabad və Lənkəran rayonlarında sayı çox olmuşdur, hər birində 50-dən çox uşaq ölümü qeydə alınmışdır[12].

Nikahlar və boşanmaların mütləq sayı əhalinin ümumi sayına uyğun olaraq dəyişir. Buna görə 2005-ci ildən sonra boşanmaların sayı 289-dan 2015-ci ildə 586-ya, 2023-cü ildə 1439-a qədər yüksəlmişdir. onun hər 1000 nəfərə görə əmsalı 0,4-dən qalxaraq 2023-cü ildə 1,5-ə çatmışdır. Lənkəran və Masallı rayonlarında boşanmalar daha çoxdur[13].

Lənkəran-Astara iqtisadi rayonunda əhalinin yaş tərkibi üç əsas qrup üzrə öyrənilir. Bunlar əmək qabiliyyətli yaşdan kiçik, əmək qabiliyyətli yaşda, əmək qabiliyyətli yaşdan böyük əhali qruplarıdır. 1999-cu ildə respublikada təbii artım yüksək olduğuna görə əmək qabiliyyətli yaşdan kiçik əhali qrupunun payı 33,88%, təqaüd yaşlı əhali 8,72% təşkil etmişdir[14].

Əhalinin üç böyük qrup üzrə paylanması və onlara daxil olan əhalinin sayının paylanmasının təhlili göstərir ki, 2019-cu ilə qədər

---

[12] Azərbaycanın demoqrafik göstəriciləri 2023. Bakı: Dövlət Statistika Komitəsi, 2024. - 617 s.

[13] Azərbaycanın demoqrafik göstəriciləri - 2009. Bakı: Dövlət Statistika Komitəsi, - 2010. s. 121-130, Azərbaycanın demoqrafik göstəriciləri - 2015. Bakı: Dövlət Statistika Komitəsi, - 2016. s. 352, 358-359, Azərbaycanın əhalisi - 2023. Bakı: Dövlət Statistika Komitəsi, - 2024. s. 112-114.

[14] Azərbaycan Respublikası əhalisinin 1999-cu il siyahıyaalmasının yekunları: [9 cilddə]. Əhalinin sayı, cins-yaş tərkibi. - Bakı: Dövlət Statistika Komitəsi, - c.1. - 2000. - 565 s.

keçən dövrdə ölkədə 15 yaşa qədər uşaqların payı azalmaqda davam etmişdir, lakin təqaüd yaşlı əhalinin payı artır. Son illərdə bu proseslər daha intensiv şəkildə gedir.

İqtisadi rayonda 2024-cü ilin əvvəlində əmək qabiliyyətli yaşda əhalinin payı orta göstəriciyə yaxın olsa da, təqaüd yaşlı əhalinin payı azdır. 2019-cu ildən sonra qabiliyyətli yaşdan kiçik əhali qrupunun sayı 77 min nəfər az olmuşdur. Regiona daxil olan inzibati rayonlarda ümumilikdə 1999-cu ildən sonra 15 yaşa qədər uşaqların payı azalmaqda davam edir. 2024-cü ildə onların ən aşağı payı Lənkəran rayonunda (21,3%), nisbətən yüksək səviyyəsi Yardımlı rayonunda (26,8%) qeydə alınmışdır. Qalan inzibati rayonlarda uşaqlar əhalinin 22-24%-ni təşkil edir[15].

Qadınların Lənkəran-Astara iqtisadi rayonunda əhali arasında payı 50,3% təşkil etmişdir. Onlar kişilərə nisbətən 4700 nəfər çoxdur. Baş verən demoqrafik proseslər nəticəsində Masallı rayonunda kişilərin sayı qadınlardan çox olmuşdur. Lənkəran rayonundan başqa digər inzibati rayonlarda isə qadınların əhali arasında xüsusi çəkisi xeyli aşağı enmişdir. Bunu hər 1000 nəfər kişiyə görə qadınların sayını göstərən nisbi kəmiyyətlər də sübut edir[16].

Lənkəran-Astara iqtisadi rayonu talışların məskunlaşdığı əsas region hesab olunur. Ona görə ölkədə qeydə alınan 87,6 min nəfər talışın 86,2 min nəfəri burada məskunlaşır və əhali arasında payı 9,49% təşkil edir. İqtisadi rayonda digər millətlərin sayı azdır, o cümlədən ruslar 230 nəfər, türklər 346 nəfər, tatarlar 9 nəfərdir[17].

Sosial-iqtisadi və demoqrafik amillərin qarşılıqlı əlaqəsi şəraitində ölkənin cənubunda yerləşən Lənkəran-Astara iqtisadi

---

[15] Azərbaycanın statistik göstəriciləri - 2009. Bakı: Dövlət Statistika Komitəsi, - 2010. - 840 s., Azərbaycanın statistik göstəriciləri - 2018. Bakı: Dövlət Statistika Komitəsi, - 2019. - 812 s.

[16] Azərbaycanın demoqrafik göstəriciləri 2023. Bakı: Dövlət Statistika Komitəsi, 2024. - 617 s.

[17] AR-da əhalinin siyahıyaalması. 2019-cu il: [30 cilddə]. Əhalinin milli-tərkibi. - Bakı: Dövlət Statistika Komitəsi Narıncı nəşriyyat evi MMC, c.21. - 2022. - 810 s., s.58-65

rayonunda da əhalinin sayının dinamikası müşahidə edilir. Onun sayı ümumilikdə artmağa doğru meyil edir (Cədvəl 3).

XX əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq iqtisadi çətinliklər, əhalinin gəlirlərinin azalması, həyat səviyyəsinin aşağı düşməsi demoqrafik inkişafa da öz mənfi təsirini göstərmişdir.

Cədvəl 3

İqtisadi rayonda əhalinin sayının dəyişməsi

| İnzibati rayonlar | Əhalinin sayı, nəfər | | | | | 1989-2019 | |
|---|---|---|---|---|---|---|---|
| | 1989 | 1999 | 2009 | 2019 | 2024 | nəfər | % |
| Astara | 69,7 | 84,3 | 96,2 | 107,9 | 111,9 | 38,2 | 154,8 |
| Cəlilabad | 132,5 | 170,0 | 192,3 | 207,0 | 217,3 | 74,5 | 156,2 |
| Lerik | 53,8 | 63,3 | 74,5 | 82,4 | 86,1 | 28,6 | 153,2 |
| Lənkəran | 163,6 | 189,9 | 205,7 | 223,7 | 227,5 | 60,1 | 136,7 |
| Masallı | 143,3 | 173,9 | 197,1 | 221,1 | 226,7 | 77,8 | 154,3 |
| Yardımlı | 40,0 | 49,0 | 58,1 | 65,4 | 68,4 | 25,4 | 163,5 |
| **İqtisadi r-n** | **602,9** | **730,5** | **823,9** | **907,5** | **937,7** | **304,6** | **150,5** |
| **Azərb.Resp.** | **7021,2** | **7953,4** | **8922,4** | **9951,4** | **10180,8** | **2930,2** | **141,7** |

**Mənbə**: Azərbaycanın demoqrafik göstəriciləri - 2018. Bakı: Dövlət Statistika Komitəsi, 2019. - s. 70., Azərbaycanın demoqrafik göstəriciləri 2023. Bakı: Dövlət Statistika Komitəsi, 2024. - s. 74-75, 83-88.

Eyni zamanda qadınların məşğulluğunun artması, müstəqilliyinin genişlənməsi, boşanmaların çoxalması, nikah yaşının artması, miqrasiyaların intensivliyi ailə quranların sayının azalmasına, ailələrdə uşaqların sayının azalması əhalinin sayının artım sürətinin aşağı düşməsinə gətirib çıxarmışdır. Ona görə iqtisadi rayonda və bura daxil olan ayrı-ayrı inzibati rayonlarda 1999-2019-cu illərdə əhali artımı ölkə üzrə orta göstəricilərə yaxın olmuşdur. Təhlil aparılan dövrdə iqtisadi rayon üzrə bu göstərici 150,5%, Azərbaycan üzrə 141,7% təşkil etmişdir.

Lənkəran-Astara iqtisadi rayonunda yerləşən şəhərlər və qəsəbələrin iqtisadi bazasının zəif olması, onların əsasən kənd təsərrüfatı məhsullarının emal edilməsi əsasında fəaliyyət göstərməsi və bu sahədə olan problemlər, uzun illər ərzində regionda təbii

artımın yüksək səviyyədə olması və əhalinin əmək qabiliyyətli olan hissəsinin artımı işsizlik probleminin həllində çətinliklər yaratmışdır.




Şəkil 2. İqtisadi rayonda əhalinin məşğulluq quruluşu, faizlə.
**Mənbə:** Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması. 2019. Statistik məcmuə. - Bakı: - c.A. - 2022. - 465 s.

Kənd əhalisinin üstünlük təşkil etməsi ilə əlaqədar kənd təsərrüfatında məşğul olanların sayı da çoxdur. Ticarət, xidmət və tikinti sahələrində də çox insan çalışır (Şəkil 2).

Dissertasiyanın dördüncü fəsli **"Əhalinin məskunlaşması və demoqrafik inkişafın nizamlanmasının prioritet istiqamətləri"**nə həsr olunmuşdur. Burada, əhalinin məskunlaşması və demoqrafik inkişafın nizamlanması yolları, iqtisadi və sosial-mədəni inkişafın əsas istiqamətləri, demoqrafik inkişafın nizamlanmasının qanunvericilik bazası öyrənilmişdir.

Ölkənin cənubunda yerləşən Lənkəran-Astara iqtisadi rayonunda məskunlaşmasının nizamlanması şəhərlər və qəsəbələrin inkişafından asılıdır. Burada ilk növbədə Lənkəran və Cəlilabad

şəhərlərinin rolu böyükdür və gələcəkdə də bu funksiyaların saxlanılması və genişləndirilməsi zəruridir.

Şəhərlərin gələcək inkişafının təmin edilməsi üçün sosial-iqtisadi inkişaf əsas amildir. Ətraf ərazilərdə olan kənd təsərrüfatı sahələrinin şəhərlərin inkişafında rolunun artırılması, bu sahəyə aid məhsulların ilkin və son məhsul emalı müəssisələrinin yaradılması vacibdir.

İqtisadi rayonda şəhər məskunlaşması sistemində **qəsəbələr** xüsusi yer tutur[18]. Onlar kənd məntəqələrinin şəhərlərə çevrilməsində aralıq mərhələ kimi qəbul edilir. Lakin buna baxmayaraq qəsəbələr əhalisinin sayına görə fərqli qruplara daxildir, iqtisadi və sosial-mədəni bazası əksər hallarda zəifdir. Ona görə bəzi qəsəbələr artıq bir neçə onilliklərlə bu statusa malik olsalar da, demoqrafik inkişafı çox zəif templə gedir, ətraf kənd məskunlaşmasına təsir göstərmək potensialına malik deyildir, əksəriyyəti hətta özünün demoqrafik potensialını saxlamaq qabiliyyətində deyildir.

Mövcud olan "İnzibati ərazi quruluşu haqqında" Qanunun tələblərinə görə yalnız Masallı rayonunda yerləşən Ərkivan qəsəbəsinə (əhalisinin sayı 17,8 min nəfər) şəhər statusu verilə bilər[19].

Regionda olan qəsəbələrin əksəriyyətində kənd həyat tərzi yayılır, onların təsərrüfatının əsasını kənd təsərrüfatı məhsullarının emalı təşkil edir. Lakin bura daxil olan sahələr yaşayış məntəqələrinin inkişafını təmin etmək qabiliyyətində deyildir. Bu sahələrdən əldə edilən gəlirlər aşağıdır, onların məhsullarının ilkin emalını həyata keçirən müəssisələr yox dərəcəsindədir.

Lənkəran-Astara iqtisadi rayonunda **kənd məskunlaşmasının** yenidən qurulması və nizamlanması vəzifələri həlli edilməlidir. Regionda kənd məskunlaşması əhalinin ərazi üzrə yerləşməsində, ərazilərin mənimsənilməsində əhəmiyyətli yer tutur. Əhalinin sayının yüksək templə artımı mövcud kənd məntəqələrinin yüksək templə böyüməsi ilə yanaşı, onların ərazi cəhətdən də genişlənməsinə, yeni torpaq sahələrinin yaşayış məntəqələri, sənaye, xidmət obyektləri və

---

[18] Eminov, Z.N. Azərbaycanın əhalisi / Z.N.Eminov. - Bakı: Çıraq, - 2005. - 560 s.
[19] Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında Azərbaycan Respublikasının qanunu // Azərbaycan qəzeti. - 2001, 26 oktyabr.

nəqliyyat-kommunikasiya xətləri altında qalmasına gətirib çıxarır. Ona görə Lənkəran ovalığı, Muğan və Salyan düzlərinin iqtisadi rayona yaxın sahələri, Talış dağlarının dağətəyi və alçaq dağlıq zonaları tamamilə mənimsənilmişdir, bu ərazilərdə kənd təsərrüfatına yararlı sahələr ildən-ilə azalmaqda davam edir.

Bununla yanaşı, kəndlərin demoqrafik inkişafında, əhaliyə sosial-mədəni xidmətlər göstərilməsində xeyli problemlər qalır. Bunları nəzərə alaraq iqtisadi rayonda kənd məskunlaşmasının nizamlanmasının əsas istiqamətlərinin müəyyən edilməsi lazım gəlir. Bu istiqamətdə tədbirlərin işlənib hazırlanması gələcəkdə həyata keçiriləcək tədbirlərin idarə edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Regionun kənd məskunlaşması sisteminə nəzər salmaqla görünür ki, kəndlər *Lənkəran ovalığında* Lənkəran və Astara rayonlarını əhatə edən bir arealı yaradır. Burada kəndlər çox böyük sıxlığa malik olmaqla yanaşı, məntəqələrin əhalisinin sayı da çoxdur, davamlı olaraq artmaqda davam edir. Ona görə əhalisinin sayı çox olan kənd məntəqələri hesabına şəhər və qəsəbələrin sayını artırmaq lazımdır. Rayon mərkəzlərinə yaxın olan kəndlərin bir hissəsini ləğv etməklə şəhərlərə birləşdirmək yolu da məskunlaşma areallarının nizamlanması üçün mühüm addımlardır.

*İkinci areal* kimi Masallı rayonunda yerləşən kəndləri ayırmaq olar. Artıq burada 2013-cü ildə aparılmış inzibati-ərazi dəyişikliyi nəticəsində rayon mərkəzinə yaxın olan bir neçə kənd məntəqəsi ona birləşdirilmişdir. Nəticədə Masallı şəhərində əhalinin sayı bir neçə dəfə artmış, kəndlər ləğv edilmişdir.

*Üçüncü* məskunlaşma arealı Cəlilabad və Göytəpə şəhərlərinin ətrafında yaranmışdır. Son vaxtlarda bu arealda əhalinin sayı davamlı olaraq artır. Lakin şəhər məntəqələrinin sayı azdır. Rayon daxilində qəsəbələr azdır, mövcud olan Novoqolovka qəsəbəsində əhali yaşamır. Ona görə əhalisinin sayı çox olan kəndlər qəsəbələr sırasına daxil edilməlidir. Bu tədbir onların gələcək inkişafına şərait yaratmaqla yanaşı, ətraf ərazilərin də inkişafının nizamlanması üçün vacib addımlardır.

Regionda Yardımlı və Lerik şəhərləri mərkəz olmaqla xüsusi kənd məskunlaşması arealını ayırmaq olar. Alçaq və orta dağlıq

ərazilərdə iri kəndlərin formalaşmasında təbii-coğrafi şərait problemlər yaradır. Bununla yanaşı, nizamlanma tədbirləri çərçivəsində kənd ərazi dairələrinin mərkəzini inkişaf etdirmək, onların nəqliyyat-kommunikasiya şəbəkəsinə qoşulmasını təmin etmək zəruridir.

Ölkənin digər regionları kimi Lənkəran-Astara iqtisadi rayonunda da sənayenin zəif inkişafı, ölkənin sənaye məhsulları istehsalında aşağı paya malik olması, bu sahədə məşğulluğun aşağı səviyyəsi yaşayış məntəqələrinin də inkişafına mənfi təsir göstərir. Keçid dövründə yaranan çətinlikləri tam olaraq aradan qaldırmaq, mövcud müəssisələri texniki-texnoloji cəhətdən yenidən qurmaq və fəaliyyətini bərpa etmək istiqamətində problemlər hələ də qalır. Onların həll edilməsi üçün dövlət vəsaitlərinin ayrılmasına ehtiyac vardır. Hazırda iqtisadi rayonda ölkənin sənaye məhsullarının cəmi 0,6%-i istehsal olunur. Sənaye sahələrində məşğul olanların cəmi 2,5%-i iqtisadi rayonun payına düşür[20].

İqtisadi rayonda sənayenin inkişafı ilk növbədə kənd təsərrüfatı məhsullarının emalına əsaslanmalıdır. Burada sənaye əhəmiyyətli faydalı qazıntı yataqları olmadığına görə yüngül və yeyinti sənayesi müəssisələri yaratmaqla şəhərlər və qəsəbələrdə iqtisadi potensialın gücləndirilməsi mümkündür.

Ümumilikdə, Lənkəran-Astara iqtisadi rayonunda kənd təsərrüfatının inkişafını təmin etmək, əldə edilən gəlirləri artırmaq, istehsal edilən məhsulların həcmini çoxaltmaq və bunun əsasında emal sənayesini inkişaf etdirmək tələb olunur. Bunun üçün yerli şəraitə uyğun növlərin məhsuldarlığını artırmaq, bu sahədə fəaliyyət göstərən fermer təsərrüfatlarının maddi-texniki bazasını genişləndirmək lazım gəlir. Becərilən məhsulların tədarükü sahəsində genişmiqyaslı işləri həyata keçirmək məqsədilə xüsusi mərkəzlər yaratmaq, onlarda soyuducu anbarlar və saxlama kameraları qurmaq zəruri tədbirlər sırasına daxildir. Onlar iş yerlərinin də açılmasına xidmət edir, kənd əhalisinin iş yerləri ilə təminatı yüksəlir, iqtisadi bazanın yaradılması üçün əsasdır, əldə

---

[20] Azərbaycanın statistik göstəriciləri - 2022. Bakı: Dövlət Statistika Komitəsi, - 2023. - 722 s.

edilən gəlirlər əsasında digər sahələrin də inkişafına şərait yaradılması üçün vacibdir. Nəzərə alınmalıdır ki, Lənkəran-Astara kənd təsərrüfatı regionudur, onun iqtisadi inkişafının əsasını bura daxil olan sahələr təşkil edir. Ona görə regionun davamlı inkişafının təmin edilməsi üçün burada becərilməsi səmərəli olan və iqtisadi cəhətdən daha çox gəlir gətirən bitkilərin əkinlərinin genişləndirilməsinə üstünlük vermək vacibdir.

Əhalinin həyat səviyyəsinin yüksəldilməsinə əsaslı təsir göstərən istiqamətlərdən biri də ödənişli sosial xidmətlər göstərilməsi, ticarət və ictimai-iaşə xidmətlərinin həcmidir. Regionlarda iş yerlərinin məhdudluğu və demoqrafik potensialdan geri qalması, gəlirlərin aşağı səviyyəsi, ticarət və ictimai-iaşə sahəsində obyektlərin seyrək şəbəkəsi bu sahədə xidmətlərin də aşağı olmasına gətirib çıxarır. Respublika üzrə hər nəfərə göstərilən pullu xidmətlər 919,1 manat olduğu halda, iqtisadi rayonda 371,33 manat təşkil edir (2023), o cümlədən məişət xidmətləri üzrə bu göstəricilər müvafiq olaraq 98,10 manat və 38,74 manat olmuşdur. Qeyd etmək lazımdır ki, respublika üzrə orta göstəricilərin yüksək olmasına Bakı şəhərində kəmiyyətlərin regionlara nisbətən bir neçə dəfə yuxarı olması da öz təsirini göstərir[21].

Ölkənin təsərrüfatında son dövrlərdə inkişafı ilə fərqlənən, bunun üçün böyük tibbi-coğrafi, tarixi-mədəni və antropogen-arxeoloji, infrastruktur potensialına malik olan turizm sənayesi də mühüm əhəmiyyət kəsb edir.

## NƏTİCƏLƏR

1. Lənkəran-Astara, Dağlıq Şirvan, Quba-Xaçmaz, Şəki-Zaqatala kimi iqtisadi rayonlarda urbanizasiya səviyyəsinin aşağı olması (30%-ə qədər), şəhərlərin zəif inkişafı uzun illər ərzində demoqrafik inkişafın zəif templə getməsinə səbəb olmuşdur. İnzibati

---

[21] Azərbaycan Respublikasının coğrafiyası: [3 cilddə]. Regional coğrafiya. Bakı: - c.3. - 2015. - 400 s., Azərbaycanın regionları -2022. Bakı: Dövlət Statistika Komitəsi, - 2023. - 865 s.

rayon mərkəzi olan şəhərlər sosial-iqtisadi və demoqrafik inkişaf mərkəzi rolunu yerinə yetirə bilmir (3, 4).

2. Şəhərlərin qruplaşmasının təhlili göstərir ki, əlverişli İCM-də yerləşən, iqtisadi və sosial-mədəni potensiala malik olan məntəqələr davamlı olaraq inkişaf edir. Regionda şəhər yaşayış məntəqələrinin və şəhər əhalisinin sayına görə Lənkəran rayonu irəlidə durur. Düzən relyef, əlverişli təbii-coğrafi şərait, yüksək təbii artım, əməktutumlu kənd təsərrüfatı sahələrinin fəaliyyəti məskunlaşmanın da inkişafına şərait yaratmışdır. İqtisadi rayonda uzun illər ərzində təbii artım yüksək göstəriciləri ilə fərqlənsə də, şəhərlər və qəsəbələrdə iqtisadi, sosial-mədəni bazanın zəifliyi, sosial-mədəni xidmətlərin müasir tələblərdən geri qalması, iş yerləri ilə təminatda olan çətinliklər səbəbindən onlar kənd əhalisi ilə yanaşı, özlərinin demoqrafik potensialını qəbul edib saxlaya bilmir. Ona görə şəhər əhalisinin sayı zəif templə artır. Lənkəran, Yardımlı və Lerik rayonlarında bu özünü daha aydın şəkildə göstərir (1, 2).

3. İqtisadi rayonda kənd əhalisi məskunlaşmada əsas yeri tutur. Əhalinin uzun illər ərzində artımının əsas mənbəyi kənd əhalisinin hesabına olmuşdur. Müstəqilliyin ilk illərində iqtisadi çətinliklər əhalinin sayının artımına öz təsirini göstərsə də, iqtisadi rayonda inzibati ərazilər üzrə şəhər və kənd əhalisinin artımının müqayisəsində kənd əhalisi üstün mövqeyini saxlamışdır (15).

4. İqtisadi rayonda kənd məntəqələri və kənd əhalisinin qruplaşmasının təhlili göstərir ki, orta və yüksək dağlıq ərazilərdə yerləşən Lerik və Yardımlı rayonlarında kəndlərin əksəriyyətində əhalinin sayı 500 nəfərə qədərdir. Bu qrup kəndlərdə infrastruktur şəbəkəsi yaradılmasında çətinliklər vardır. Ərazisi Lənkəran ovalığında, dağətəyi və alçaq dağlıq zonalarda yerləşən digər rayonlarda kiçik kəndlər azdır. Bu rayonlarda əhalisi 1000 nəfərdən çox olan kənd məntəqələri çoxdur. İqtisadi rayonda əhalisi 2000 nəfərdən çox olan 90 kənd məntəqəsi mövcuddur. Onlar kənd məskunlaşmasında aparıcı mövqeyə malikdir və onun nizamlanmasında mühüm əhəmiyyət kəsb edir.

Aparılan təhlillər göstərir ki, əhalisinin sayı 500 nəfərə qədər olan kəndlər və onlarda toplanan əhalinin sayı zəif templə artır, yəni

bu qrup kəndlər demoqrafik potensialını itirməkdə davam edir. Əhalisi 1000 nəfərdən çox olan kəndlər və onların əhalisi isə artır. (13)

5. İqtisadi rayonda kənd əhalisinin yüksəklik qurşaqları üzrə paylanmasının təhlili göstərir ki, məskunlaşma üçün əlverişli olan ərazilər Lənkəran ovalığındadır. Burada mütləq hündürlük okean səviyyəsindən aşağıdır. Düzənlik və hamar relyef, təbii artımın yüksək göstəriciləri, əməktutumlu kənd təsərrüfatı sahələrinin inkişafı iri kənd məntəqələrinin formalaşmasına gətirib çıxarmışdır. Rayon mərkəzləri və qəsəbələrin də burada yerləşməsi kəndlərin sayının artmasına, ərazi cəhətdən genişlənməsinə təsir göstərmişdir. Ona görə kənd əhalisinin böyük əksəriyyəti 200 m-ə qədər ərazilərdə cəmlənir. Lerik və Yardımlı rayonlarının 500 m-dən çox mütləq hündürlüyü olan ərazilərdə yerləşməsi və kəndlərin sayının çox olması 500 nəfərdən çox əhalisi olan qrupların toplanmasına səbəb olur (8).

6. İqtisadi rayonda doğum, ölüm və təbii artım göstəricilərinin müstəqillik illərində olan dinamikasının təhlili göstərir ki, XX əsrin 90-cı illərində yaranan iqtisadi çətinliklər onların azalmasına gətirib çıxarmışdır. Azalma prosesləri XXI əsrin ilk illərinə qədər davam etmişdir. Nəticədə əhalinin sayının artım tempi xeyli aşağı enmişdir. Son illərdə də ölkədə olduğu kimi regionda da doğulan uşaqların sayı və təbii artım azalmağa doğru meyil edir. Şəhər əhalisi arasında bu azalma daha sürətlə gedir. Ona görə uzun illər yüksək təbii artım ilə fərqlənən regionda onun əmsalları ölkə üzrə orta göstəricilərə yaxındır. İqtisadi rayonda kənd əhalisinin payı çox olduğuna görə onlar arasında təbii artım şəhər əhalisinə nisbətən bir neçə dəfə yüksəkdir. Cəlilabad, Yardımlı və Lerik rayonlarında şəhər və kənd əhalisi təbii artımın yüksək göstəriciləri ilə fərqlənirlər (9).

7. Lənkəran-Astarada şəhər əhalisi arasında uşaq ölümü əmsalı kənd əhalisinə nisbətən 3,49 dəfəyə qədər çoxdur. Masallı, Lənkəran və Astara rayonlarında uşaq ölümü çox yüksəkdir (17).

8. Lənkəran-Astara iqtisadi rayonunda əhalinin sayının artımı əvvəlki illərə nisbətən xeyli azalmış olsa da, respublikanın orta göstəricisindən yuxarıdır. Uzun illər ərzində təbii artımın yüksək templə getməsi onun sayının dəyişməsinə də öz təsirini göstərmişdir. Hazırda Cəlilabad rayonunda sosial-iqtisadi bazanın davamlı olaraq

inkişafı, kənd təsərrüfatında aparılan islahatlar əhalinin sayının da yüksələn xətlə inkişafını təmin edir. (14)

## Təkliflər

1. Göstərilən demoqrafik və məskunlaşma problemlərinin həll edilməsi üçün yerlərdə əsas məskunlaşma mərkəzləri olan şəhərlər, qəsəbələr və iri kənd yaşayış məntəqələrinin inkişafına şərait yaratmaq, regionlarda iqtisadi inkişafın əsası olan kənd təsərrüfatının inkişafını təmin etməklə yanaşı, onların elmi təhlilinin də aparılması vacibdir.
2. Şəhərlər və qəsəbələrdə iqtisadi, sosial-mədəni bazanı möhkəmləndirmək, sosial-mədəni xidmətlərin müasir tələblər səviyyəsinə çatdırmaq, əhalinin iş yerləri ilə təminatını həyata keçirmək lazımdır.
3. İri kənd yaşayış məntəqələrinin qəsəbə və şəhərlərə çevrilmə prosesini sürətləndirmək lazımdır.
4. Qadınlara və uşaqlara göstərilən tibbi xidmətlərin səviyyəsinin yüksəldilməsi, pediatriya mərkəzlərinin yaradılması, onların maddi-texniki baza ilə təmin edilməsi, bu sahədə həkim kadrların hazırlanması tələb olunur.

## Dissertasiya mövzusu üzrə çap edilmiş elmi əsərlər:


1. Bağırova, M.İ. Demoqrafik potensialın iqtisadi və sosial inkişafa təsiri // - “Azərbaycan regionlarının coğrafi problemləri” mövzusunda respublika elmi-praktiki konfransının materialları, - Bakı: BDU, - 28 aprel, - 2016, - s.152-155.
2. Bağırova, M.İ. Demoqrafik inkişaf və iqtisadi vəziyyətin qarşılıqlı təsirləri // - “Müasir dövrdə effektiv idarəetmənin problemləri” mövzusunda respublika konfransının materialları, - Bakı: ATMU, - 28-29 oktyabr, - 2016, - s. 34-36.
3. Bağırova, M.İ. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda demoqrafik şəraitin səciyyəsi // - “Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhalinin məskunlaşmasının perspektivləri və regional problemləri” mövzusunda elmi konfransın materialları, -

Bakı: Azərbaycan Coğrafiya Cəmiyyəti, akad. H.Əliyev adına Coğrafiya İnstitutu, - 12-13 sentyabr, - 2016, - s. 111-115.

4. Bağırova, M.İ. Проблемы демографического развития / Lənkəran Dövlət Universiteti, Təbiət elmləri seriyası, - Lənkəran: LDU, - 2017, - s. 89-93.

5. Bağırova, M.İ. Azərbaycanda qış turizminin inkişaf perspektivləri // - "Turizm və rekreasiya XXI əsrdə: Problemlər və perspektivlər" mövzusunda III Beynəlxalq elmi-praktiki konfransın materialları, - Bakı: ATMU, - 7-8 aprel, - 2017, - s. 222-229.

6. Bağırova, M.İ. Azad iqtisadi zonaların sosial-iqtisadi inkişafa təsiri / - "Turizm və qonaqpərvərlik tədqiqatları" beynəlxalq jurnal, - Bakı: ATMU, - 2017, - s. 141-147 (Həmmüəllif: Ələsgərova F.Q.).

7. Багирова, М.И. Экотуризм - развитие и влияние // - "Тенденции и перспективы развития туризма в Казахстане и Центральной Азии" материалы I Международной научно-практической Конференции, - Алматы: КНПУ имени Абая, - 14-15 март, - 2019, с. 203-205.

8. Baghirova, M.I. Economic-geographical problems of effective organization of economy and controlling of distribution of the population in the southern border of the Republic of Azerbaijan (in the example of Lankaran-Astara economic region) / - "Problems of Geography", - Book 3-4, - Sofia: 2019, - p. 115-125.

9. Bağırova, M.İ. Azərbaycanda ölüm göstəricilərinin demoqrafik inkişafa təsiri // - "Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün və sabah" Beynəlxalq elmi-praktik konfransın materialları, - Bakı: ƏƏSMN, - 26 dekabr 2018, - 2019, - s. 337-340 (Həmmüəlliflər: Eminov Z.N., Məmmədov İ.B., Abasova L.M.).

10. Bağırova, M.İ. Azərbaycan Respublikasında kurort-turizm təsərrüfatının müasir problemləri və onların həlli istiqamətləri // - "Davamlı inkişafın təmin olunmasında turizmin rolu" mövzusunda konfransın materialları, - Bakı: BDU, - 15 may, - 2019, - s. 408-414 (Həmmüəlliflər: Eminov Z.N., Bağırova F.R.).

11. Bağırova, M.İ. Lənkəran-Astara iqtisadi rayonunda yaşayış məntəqələrinin qruplaşması / - Pedaqoji Universitetin xəbərləri, - Riyaziyyat və təbiət elmləri seriyası, - C.67, №4, Bakı: 2019, – ADPU, - s. 51-59.

12. Bağırova, M.İ. Lənkəran-Astara iqtisadi rayonunda təsərrüfat strukturunun yenidən qurulması və əmək ehtiyatlarından istifadə edilməsi / - Coğrafiya və təbii resurslar №1(11), - Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, - Bakı: 2020 – AMEA, - s. 76-84.

13. Багирова, М.И. Проблемы расселения и регулирования демографического развития в Ленкорань-Астаринском экономическом районе / - Социальное время, Научный журнал, - Р.Ф., Йошкар-Ола: 2020, – ПГТУ, - с. 44-56.

14. Багирова, М.И. Занятость населения в Ленкорань-Астаринском экономическом районе Азербайджана // - "Безопасность человека и устойчивое развитие общества перед вызовами Глобальных трансформаций", Материалы международной междисциплинарной научной конференции, - Р.Ф., Йошкар-Ола: 3 декабря 2020, - 2021, часть I, – ПГТУ, - с.118-123.

15. Багирова, М.И. Динамика численности населения и ее влияние на демографическое развитие в Лянкярань-Астаринском экономическом районе Азербайджанской Республики / - Российский научный журнал Вестник Национальной Академии Туризма, - Санкт-Петербург, - 2021, - с. 51-54.

16. Багирова, М.И. Основные направления экономического и социально-культурного развития в Лянкярань-Астаринском экономическом районе Азербайджанской Республики / - Ученые записки Крымского федерального университета имени В.И.Вернадского. География .Геология, - Симферополь, - 2021, - с. 3-12.

17. Багирова, М.И. Младенческая смертность (в возрасте до одного года) в Лянкяран-Астаринском экономическом районе Азербаджана / - Naxçıvan Universiteti Elmi əsərləri, - Naxçıvan: Nux, - 2023, - № 1, - s. 226-231.

18. Багирова, М.И. Оценка демографической ситуации в Лянкяранско-Астаринском экономическом районе Азербайджанской Республики / - Астраханский вестник экологического образования, - Астрахань, - 2023, - № 3 (75), - с.130-137.

Dissertasiyanın müdafiəsi 14 fevral 2025-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikası ETN akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 3.14 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA-nın əsas binası, 8-ci mərtəbə.

Email: institute@geograph.science.az

Dissertasiya işi ilə akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun www.igaz.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 10 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.01.2025

Kağızın formatı: A5

Həcm: 39945

Tiraj: 100